HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 03 (2010) 23 yanvar 2026-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiyməti : 50 qəpik

# Əsrlərlə oxunan dastan: Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi

*(əvvəli ötən sayımızda)*

**1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra Ermənistanın əsassız ərazi iddiaları nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi və minlərlə vətəndaşımızın şəhid olması tariximizin ən mürəkkəb səhifələrindən biri idi. Həm insan, həm də torpaq itkisi xalqımızı sarsıtmadı, əksinə, hamını bir amal ətrafında birləşdirdi. Hamı eyni məqsəd uğrunda çalışırdı.**

**Mübariz İbrahimov cəsarəti, Vətənə olan sevgisi və misilsiz igidliyi ilə yaddaşlara həkk olunub. O, müstəqil Azərbaycan gəncliyinin mənəvi dayaq nöqtəsinə çevrilmiş bir qəhrəmandır.**

2010-cu ilin iyununda cəbhənin Tərtər istiqamətində düşmənlə üzbəüz mövqedə xidmət edən Mübariz İbrahimov gecə saatlarında erməni silahlı qüvvələrinin ön xəttini yararaq təkbaşına düşmənə ağır zərbələr endirib. Onun cəsarəti nəticəsində onlarla erməni hərbçisi məhv edilib. Qorxmazlığı, mərdliyi, igidliyi və Vətən sevgisini özündə cəmləşdirən Mübariz İbrahimov bu əməliyyatı həyata keçirdikdən sonra özü də şəhid olub. Onun göstərdiyi qəhrəmanlıq Azərbaycan xalqı üçün qürurverici bir hadisə oldu. Mübariz İbrahimovun göstərdiyi şücaət müstəqil Azərbaycan tarixində bir dönüş nöqtəsi, ordu ruhunun və xalq birliyinin simvoluna çevrildi. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Mübariz İbrahimov XXI əsrin Azərbaycan gəncliyi üçün bir örnək, əsl qəhrəmanlıq rəmzidir.

1994-cü ilin yanvarın əvvəlində Ulu Öndər Heydər Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu Horadiz əməliyyatından 22 il sonra - 2016-cı ilin Aprel döyüşləri, 2020-ci il Vətən müharibəsində qazanılmış qələbəmizin başlanğıcı, eyni zamanda, xalqımızın Zəfər salnaməsinə yazılan şanlı tarixdir. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Ermənistan silahlı qüvvələri cəbhə xəttində Azərbaycan mövqelərini intensiv atəşə tutdu. Azərbaycan Ordusu buna cavab olaraq əks-hücum əməliyyatına başladı və düşmən təxribatlarının qarşısını qətiyyətlə aldı. Şanlı Azərbaycan Ordusu qısa müddət ərzində bir sıra strateji yüksəklikləri düşmən işğalından azad etdi.

Aprel döyüşləri əsasən Tərtər-Ağdərə, Cəbrayıl-Füzuli, Xocavənd-Ağdam istiqamətlərində gedirdi. Aprel döyüşləri zamanı şəhid olan yüksək döyüş hazırlığına malik vətənpərvər zabit polkovnik-leytenant Murad Mirzəyev xüsusi qəhrəmanlıq nümunələri göstərib. O, Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə ön sıralarda vuruşub, düşmənin strateji mövqelərinin ələ keçirilməsində hünər göstərib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. O, həm də "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və digər medallarla təltif olunub. Murad Mirzəyev və digər Aprel döyüşləri qəhrəmanlarının şücaəti 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun ruhunu və qələbə əzmini daha da artırdı.

Aprel döyüşlərinin qəhrəman igid oğullarından biri də Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidovdur. O, Azərbaycan Ordusunda müxtəlif vəzifələrdə xidməti vəzifələrini yüksək peşəkarlıqla yerinə yetirib. Bölük və tabor komandiri, qərargah rəisi vəzifələrində xidmət edib. 2016-cı ilin Aprel döyüşlərində Şükür Həmidov Cəbrayıl rayonu istiqamətində yerləşən Lələtəpə yüksəkliyinin işğaldan azad olunmasında xüsusi şücaət göstərib. Polkovnik Şükür Həmidov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 aprel 2016-cı il tarixli Sərəncamına əsasən, "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Polkovnik Şükür Həmidov 44 günlük Vətən müharibəsində döyüşüb və şəhid olub.



2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hücum əməliyyatı nəticəsində çox sayda mülki şəxs və hərbi qulluqçu şəhid oldu və yaralandı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Azərbaycan Ordusu əks-hücuma keçərək düşmənə sarsıdıcı zərbələr endirdi. Azərbaycan Ordusu düşmənə ciddi zərbə vuraraq 30 illik həsrətə son qoydu. 44 gün davam edən Vətən müharibəsində qazanılan Qələbə Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri oldu.

Vətən müharibəsində Azərbaycan Ordusu xalqın gücünü, iradəsini və birliyini təcəssüm etdirərək nəyə qadir olduğunu bir daha nümayiş etdirdi. Torpaqlarımızın azad olunması həm hərbi, həm siyasi, həm də mənəvi baxımdan misilsiz Qələbə idi.

Zəfərimizin təməlində dayanan şəhidlərimiz və yaralı döyüşçülərimiz bu xalqın yaddaşına əbədi həkk olunublar. Qəhrəman oğullarımızın sayəsində torpaqlarımız işğaldan azad edildi.

Vətən müharibəsində nümayiş etdirilən yüksək döyüş hazırlığı, texnoloji üstünlük və taktiki çeviklik Azərbaycan Ordusunun regionun ən güclü silahlı qüvvələrindən biri olduğunu sübut etdi. 2020-ci ildə başlayan 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərlə ərazi bütövlüyümüz, 2023-cü ildə keçirilən antiterror əməliyyatı zamanı isə suverenliyimiz bərpa edildi.

Müharibədən sonrakı illərdə Azərbaycan Ordusu daha da modernləşərək həm müdafiə, həm də hücum imkanlarını artırıb. Belə ki, hərbi qulluqçularımızın bilik və yüksək döyüş hazırlığı, vətənpərvərliyi həm ölkə daxilində, həm də beynəlxalq hərbi təlimlərdə özünü göstərir. Azərbaycan Ordusunun hərbi qulluqçuları NATO ilə tərəfdaşlıq çərçivəsində müxtəlif sülhməramlı tədbirlərdə üzərlərinə düşən missiyanı şərəflə yerinə yetirirlər. Bugünkü Azərbaycan Ordusunun əsas dayağı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir.

2025-ci il noyabrın 8-də xalqımız tarixi Zəfər Gününün 5 illiyini təntənəli surətdə qeyd etdi. Həmin gün şəhidlərimizin ruhu böyük ehtiramla yad edildi. Onların Vətən müharibəsində göstərdiyi şücaət xalqımızın yaddaşından heç vaxt silinməyəcək.

Azərbaycan xalqı tarix boyu öz torpağı, kimliyi və müstəqilliyi uğrunda mübarizə aparıb. Bu mübarizə müxtəlif dövrlərdə müxtəlif adlar alıb: Cümhuriyyət, müstəqillik, Qarabağ savaşı və Zəfər! Bu gün biz həm xalqımızın qəhrəman oğulları ilə, həm də onların xalqımıza bəxş etdiyi tarixi Zəfərlə fəxr edirik. Xalqımızın qəhrəmanlıq tarixi bitməyən bir dastandır. Bu dastanı yazanlar isə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, xalqımızın milli birliyi və rəşadətli Azərbaycan Ordusudur.

*ordu.az*